**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

________________

25.05.2022-ci il

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Əmtəə bazarının səmərəliliyi və rəqabət" işçi qrupunun 2022-ci il üçün Fəaliyyət Planı**

| Sıra №-si | İndikatorlar və ya tematik sahələr | Mövcud vəziyyət (son hesabat üzrə) | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcra orqanları | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| ***Qlobal Rəqabətlilik Hesabatı*** | | | | | | | |
| 1. | **7.02 Bazar dominant-lığının səviyyəsi**<br><br>**7.03 Xidmət sahələri üzrə rəqabət** | 19-cu yer, 62 bal<br><br>36-cı yer, 72 bal | Bu göstərici Dünya İqtisadi Forumunun "Ölkənizdə korporativ fəaliyyəti necə xarakterizə edirsiniz?" sorğusu əsasında müəyyən olunur. Cavab 1-7 bal üzrə qiymətləndirilir [1 = bir neçə biznes qrupu üstünlük təşkil edir; 7 = bir çox firma arasında yayılmışdır].<br><br>Bu göstərici Dünya İqtisadi Forumunun aşağıdakı sorğusu üzrə 3 komponentin orta göstəricisi əsasında hesablanır: "Ölkənizdə aşağıdakı xidmətlərin | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurum tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən həmin quruma zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Təbii inhisar subyektləri tərəfindən öz fəaliyyətlərində qanunvericiliyə riayət edilməsi vəziyyəti üzrə təhlillərin aparılması, nəticəsindən asılı olaraq müvafiq tədbirlərin görülməsi və zərurət yarandıqda təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi; | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti - AİBNDX) | Xamis Seyranov, Cəfər Babayev, Şahin Nağıyev, Elmar Məlikov |
| | | | | **2.** İnhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması ilə bağlı müvafiq tədbirlərin görülməsi, inhisar subyektlərinin fəaliyyət göstərdiyi bazarlarda müvafiq araşdırmaların aparılması; | | | |
| | | | | **3.** Haqsız rəqabətin qarşısının alınması və aradan qaldırılması ilə bağlı müvafiq tədbirlərin görülməsi, ayrı-ayrı əmtəə bazarlarında müvafiq araşdırmaların aparılması; | | | |

<table>
<tr><td></td><td></td><td></td><td>təminatı nə dərəcədə rəqabətlidir?<br>(a) peşəkar xidmətlər (hüquqi xidmətlər, mühasibat uçotu, mühəndislik və s.)<br>(b) pərakəndə xidmət<br>(c) şəbəkə sektoru (telekommunikasiya, kommunal xidmətlər, poçt, nəqliyyat və s.)<br>Cavab 1-dən (rəqabətli deyil) 7-yə (yüksək rəqabətlidir) qədər dəyişir.</td><td>4. Haqsız rəqabətin əlamətləri barədə istehlakçıların və sahibkarlıq subyektlərinin məlumatlandırılması və onların haqsız rəqabətin qarşısının alınmasında iştiraka təşviq edilməsi, KİV-də və sosial şəbəkələrdə bu məqsədlə zəruri məlumat və materialların yerləşdirilməsi.</td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="6">2.</td><td rowspan="6">12.09<br>Alıcıların istehlakçılıq meyarları</td><td rowspan="6">18-ci yer, 59,1 bal</td><td rowspan="6">Dünya İqtisadi Forumunun “Sizin ölkənizdə alıcılar satınalma qərarları qəbul edərkən nəyə əsaslanırlar?” sorğusuna alıcıların cavabı [1=yalnız ən aşağı qiymətə əsaslanırlar, 7=yaxşı keyfiyyət göstəricisinə əsaslanırlar].</td><td colspan="4">Aşağıdakı istiqamətlərdə aidiyyəti qurum tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən həmin quruma zəruri dəstəyin göstərilməsi:</td></tr>
<tr><td>1. İstehlakçıların hüquqları barədə onların maarifləndirilməsi istiqamətində işlərin davam etdirilməsi;</td><td rowspan="3">Mütəmadi</td><td rowspan="5">İqtisadiyyat Nazirliyi (AİBNDX)</td><td rowspan="5">Elnur Bağırov, Roman Qaraşov, Elmar Məlikov, Tural İsmayılov, Vaqif Ataşov</td></tr>
<tr><td>2. Sahibkarların istehlakçıların hüquqlarının qorunmasında fəallığının artırılması;</td></tr>
<tr><td>3. İstehlakçıların hüquqlarının pozulması ilə əlaqədar daxil olmuş müraciətlərə mövcud qanunvericiliyin tələblərinə uyğun baxılması və görülmüş işlərə dair məlumatların KİV və sosial şəbəkələr vasitəsilə yayılmasının təmin olunması;</td></tr>
<tr><td>4. İstehlakçıların hüquqlarının daha səmərəli müdafiəsi üçün beynəlxalq təcrübə öyrənilməklə qanunvericilik aktlarına əlavə və dəyişikliklərin edilməsi barədə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması;</td><td>31.08.2022</td></tr>
<tr><td>5. İstehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən dövlət qurumları və QHT-lərlə daha səmərəli əməkdaşlığın təşkil edilməsi;</td><td>Mütəmadi</td></tr>
</table>

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| *Qlobal İnnovasiyalar İndeksi* | | | | | | | |
| 3. | **4.3.2. Yerli rəqabətin intensivliyi** | 103-cü yer, 61,3 bal | Dünya İqtisadi Forumunun “Ölkənizdə daxili bazarda rəqabət nə dərəcədə intensivdir?” sorğusu əsasında hesablanır [1=heç intensiv deyil, 7= yüksək intensivlik var]. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Yerli bazarlara müvafiq mal (iş və xidmət) növü üzrə yeni iştirakçıların daxil olması prosedurlarının təkmilləşdirilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması; | 30.06.2022 | | |
| | | | | **2.** Bu alt-indikator üzrə Azərbaycanla bağlı göstəricilərin müvafiq metodologiyanın tələbləri baxımından araşdırılması, hesabatdakı göstəricilərin faktiki vəziyyətə görə müqayisəli qiymətləndirilməsi və qeyd olunan göstəricilərin yaxşılaşdırılmasına dair təkliflərin hazırlanaraq aparılmış qiymətləndirmənin nəticələrini özündə əks etdirən hesabatla birlikdə Komissiyaya təqdim edilməsi; | 30.06.2022 | İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi, Mərkəzi Bank, sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verən digər orqanlar | Zaur Nuruyev, Cəfər Babayev, Adil Əliyev, Samir İsmayılov, Rəşad Qarayev |
| | | | | **3.** Yerli rəqabətin intensivliyinin artırılması istiqamətində görülmüş işlərə dair məlumatların KİV və sosial şəbəkələr vasitəsilə yayılmasının təmin olunması və rüblük hesabatların təqdim edilməsi. | Hər rüb | | |
| *Dövlət satınalmaları* | | | | | | | |
| 4. | **Dövlət satınalmaları** | - | - | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | ***1.*** *Dövlət satınalmalarına dair aşağıdakı tədbirlərin görülməsi:* | | | |
| | | | | **1.1.** Dövlət satınalmalarının vahid internet portalının (bundan sonra - portal) tərkibində İcazələrin Elektron Mübadiləsi alt-sisteminin yaradılması; | 31.08.2022 | İqtisadiyyat Nazirliyi (AİBNDX), Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (VXSİDA), aidiyyəti dövlət qurumları | Əhməd Həsənov, Fariz Cəfərov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **1.2.** Qanunvericiliyin tələblərinə uyğun olaraq müqavilənin icrasına başlama tarixi, habelə tələb olunduğu halda əldə edilmiş icazələr (razılıqlar) barədə bildirişin formasının müəyyən edilməsi və adıçəkilən bildirişin podratçıya təqdim olunması qaydasının təsdiq olunması. | 30.06.2022 | İqtisadiyyat Nazirliyi (AİBNDX), Ədliyyə Nazirliyi | Əhməd Həsənov, Adil Əliyev |
| | | | | **2.** *Mövcud Qanunda irihəcmli dəyişiklik tələb edən indikatorların, o cümlədən şəffaflıq və intizamlılıq səviyyəsini artıran, dövlət vəsaitindən səmərəli istifadəni təmin edən, sui-istifadə hallarını minimallaşdıran, nəzarət imkanlarını genişləndirən, satınalmaların tam elektronlaşmasına keçidi təmin edən "Dövlət satınalmaları haqqında" yeni qanun layihəsinin aidiyyəti üzrə təqdim edilməsi və razılaşdırılması:* | | | |
| | | | | **2.1.** Qanunvericiliyin daha da təkmilləşdirilməsinə dair təkliflərin, o cümlədən AMCHAM tərəfindən hazırlanmış "Ağ Sənəd"də qeyd olunan tövsiyələr nəzərə alınmaqla yeni qanun layihəsinin hazırlanaraq Komissiyaya təqdim olunması. | 30.06.2022 | İqtisadiyyat Nazirliyi (AİBNDX), Ədliyyə Nazirliyi | Əhməd Həsənov, Adil Əliyev |
| | | | | **3.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində məsuliyyətin artırılması və yeni qanun layihəsinə uyğun olaraq əlavə məsuliyyətlərin müəyyən edilməsi ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi. | 30.06.2022 | İqtisadiyyat Nazirliyi (AİBNDX), Ədliyyə Nazirliyi | Əhməd Həsənov, Adil Əliyev |
| | | | | ***4.*** *Portalın təkmilləşdirilməsi və funksionallığının artırılması ilə bağlı aşağıdakı tədbirlərin görülməsi:* | | | |
| | | | | **4.1.** Müvafiq məlumatlar əsasında dövlət satınalmaları üzrə vahid internet portalının funksional diaqnostikasının aparılması (stres-testlərin keçirilməsi), zəruri funksiyaların mövcud və işlək vəziyyətdə olmasına dair hesabatın (linklər göstərilməklə) hazırlanaraq Komissiyaya təqdim olunması; | 30.06.2022 | VXSİDA, İqtisadiyyat Nazirliyi (AİBNDX) | Fariz Cəfərov, Əhməd Həsənov |
| | | | | **4.2.** Portalın fəaliyyətini təkmilləşdirərək satınalma prosedurlarında çevikliyin və şəffaflığın artırılması, o cümlədən ictimai nəzarət imkanlarının genişləndirilməsi və əyani təlimlərin təşkilinə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim olunması; | 30.06.2022 | İqtisadiyyat Nazirliyi (AİBNDX) | Əhməd Həsənov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **4.3.** Bu Fəaliyyət Planının 4-cü bölməsinin 4.2-ci bəndi üzrə hazırlanmış təkliflər əsasında müvafiq tədbirlərin görülməsi və bu barədə rüblük hesabatın Komissiyaya təqdim olunması. | 2022-ci ilin II yarımilliyi | İqtisadiyyat Nazirliyi (AİBNDX) | Əhməd Həsənov |
| | | | | **5.** Bu Fəaliyyət Planının 4-cü bölməsinin 2-ci bəndində qeyd olunan yeni qanun layihəsi qüvvəyə mindikdən sonra sahibkarların, satınalan təşkilatların və ictimaiyyətin məlumatlandırılması üçün müvafiq kommunikasiya strategiyasının (görüşlər, təlimlər, təqdimatlar, bildirişlərin göndərilməsi və s.) hazırlanması və təsdiq edilməsi üçün aidiyyəti üzrə təqdim olunması; | Müvafiq qanunlar qüvvəyə mindikdən sonrakı 1 ay ərzində | İqtisadiyyat Nazirliyi (AİBNDX), İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) | Əhməd Həsənov, Rəşad Hüseynov |
| | | | | **6.** Dövlət satınalmaları barədə malgöndərənlərin (podratçıların), satınalan təşkilatların, eləcə də sahibkarlıq subyektlərinin məlumatlandırılması məqsədilə geniş təbliğat və maarifləndirmə tədbirlərinin keçirilməsi; | İyun və oktyabr 2022-ci il | İqtisadiyyat Nazirliyi (AİBNDX), İİTKM | Əhməd Həsənov, Rəşad Hüseynov |
| | | | | **7.** Dövlət satınalmaları üzrə qanunvericilikdə aparılan son dəyişikliklərin Azərbaycanda biznes mühitinə müsbət təsiri, bu sahədə rəqabətin və şəffaflığın daha da artırılması və sahibkarlara yaradılmış geniş imkanlar mövzusunda dövlət qurumları, sahibkarlıq subyektləri və aparıcı konsaltinq şirkətlərinin nümayəndələrinin iştirakı ilə KİV-də müzakirələrin və çıxışların təşkil edilməsi; | Hər rüb | İqtisadiyyat Nazirliyi (AİBNDX), İİTKM | Əhməd Həsənov, Rəşad Hüseynov |
| | | | | **8.** Müvafiq sahədə biznes mühiti və dövlət satınalmalarının vahid internet portalından istifadə ilə əlaqədar fokus qrupları (sahibkarlar, konsaltinq şirkətləri və digər maraqlı tərəflər) ilə sorğuların keçirilməsi və diaqnostikaların aparılması, müvafiq nəticələrə əsasən təkmilləşməni nəzərdə tutan təkliflərin hesabatla birlikdə Komissiyaya təqdim olunması; | 31.07.2022 | İqtisadiyyat Nazirliyi (AİBNDX), İİTKM | Əhməd Həsənov, Rəşad Hüseynov |
| | | | | **9.** Bu Fəaliyyət Planının 4-cü bölməsinin 6-cı bəndinin icrasından sonra aidiyyəti koordinatorlar, satınalan təşkilatın digər əməkdaşları və sahibkarların nümayəndələri üçün onlayn təlimlərin keçirilməsi. | Mütəmadi | İqtisadiyyat Nazirliyi (AİBNDX) | Əhməd Həsənov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ***Əlverişli Biznes Mühiti (Business Enabling Environment)*** | | | | | | | |
| 5. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Dünya Bankı Qrupunun yeni "Əlverişli biznes mühiti (Business Enabling Environment)" layihəsinin aidiyyəti komponentləri əsasında ilkin qiymətləndirmə, təhlil və diaqnostikanın aparılması və mümkün ən qısa müddətdə həm qanunvericilik, həm də inzibatçılıq sahəsində təkmilləşmələrin, habelə kommunikasiya tədbirlərinin həyata keçirilməsi, müvafiq sahələrdə elektron xidmətlərin tətbiqi və ya daha da təkmilləşdirilməsi və görülmüş işlər barədə Komissiyaya məlumat verilməsi. | 31.07.2022 | İqtisadiyyat Nazirliyi (AİBNDX) və digər aidiyyəti qurumlar | Şahin Nağıyev, Xamis Seyranov, Cəfər Babayev, Əhməd Həsənov |
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | | | |
| 6. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahədə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi. | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |
| 7. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupları ilə əməkdaşlığın genişləndirilməsi və ölkədə faktiki göstərici və ya qanunvericilik tələbi barədə məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması. | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |